# “Xarıbülbül” təntənəsi

**Bu gözəl bayrama, çal-çağıra tamaşa edənlərin gözlərindəki sevinci sezməmək mümkün deyil. Onlar sevinc dolu təəssüratlarını dilə gətiriblər. Onların ürək sözlərini təqdim edirik.**



**Xalq artisti Arif Babayev:**

– Şuşanın azadlığını görmək, hər qarışı, hər cığırı doğma olan bu yerləri dolaşmaq bir qarabağlı olaraq, mənim üçün çox böyük xoşbəxtlikdir. Əslində, Şuşa təkcə orada doğulub boya-başa çatan, uşaqlığı, gəncliyi həmin diyarda keçənlərin deyil, hər bir azərbaycanlının Vətənidir. Düşünürəm ki, burada təşkil olunan tədbirlərin hamısı bir-birindən gözəl və qiymətlidir. Belə gözəl tədbirlərdə iştirak etdiyim üçün çox xoşbəxtəm.

**Xalq artisti Zeynəb Xanlarova:**

– Şuşaya dəfələrlə gəlsəm də, burada ilk dəfədir səhnəyə çıxıram. Bu, böyük səadətdir. Çox sevinirəm ki, belə gözəl festivalda həm iştirak etdim, həm də mahnımı oxudum. Qala-şəhərdə təşkil olunan hər bir tədbir mənim üçün əlamətdardır. Bu sırada “Xarıbülbül” festivalının özünəməxsus yeri var.

**Xalq artisti Ramiz Quliyev:**

– Həm bu festivalı, həm də son vaxtlar ölkəmizdə yaşanan əlamətdar günləri yüksək dəyərləndirirəm. Bu günlərdə ölkəmiz bir-birindən maraqlı və yaddaqalan hadisələrə şahidlik edir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü, Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyi, ardınca da “Xarıbülbül” festivalı ölkəmizdə əsl bayram əhvali-ruhiyyəsi yaradıb. Bunlar unudulmaz, əziz günlərdir.



***XQ***

Xalq qəzeti .- 2024.- 12 may, № 98.- S.10.